# UNİVERSİTETİN 20-ci BURAXILIŞI





Lənkəran Dövlət Universiteti respublikamızın qabaqcıl təhsil müəssisələrindən biridir. Fəaliyyət göstərdiyi 20 il ərzində təhsil ocağını 29 ixtisas üzrə 7 min nəfər bitirmişdir. Məzunlar çalışdıqları müəssisələrdə peşə borclarını şərəflə, məsuliyyətlə yerinə yetirir, təhsil aldıqları ali məktəbin adını həmişə uca tuturlar.

Universitetin 1 nömrəli tədris korpusunun qarşısında universitetin 20-ci buraxılışına həsr olunmuş "Məzun Günü" keçirilmişdir. Tədbirdə universitetin kollektivilə yanaşı rayonun təhsil, mədəniyyət müəssisələrinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Universitetin rektoru, fizika-riyaziyyat elmləri doktoru, professor, əməkdar elm xadimi Asəf İsgəndərov tədbiri giriş sözü ilə açaraq ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından, təhsil ocağının uğurlarından danışmışdır.

Rektor bildirmişdir ki, bu il universiteti 13 ixtisas üzrə 248 nəfər bitirir. Məzunlar iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən, elm, təhsil müəssisələrində, dövlət və hakimiyyət orqanlarında çalışır, yüksək ixtisaslı, bacarıqlı kadr kimi etimadı ləyaqətlə doğruldurlar. Məzunları ali məktəbi bitirmələri münasibətilə təbrik edən rektor onlara həyatın enişli-yoxuşlu yollarında uğurlar diləmiş, arzu və tövsiyələrini söyləmişdir.

Lənkəran rayon ağsaqqallar şurasının sədri Kamal Kələntərli, universitet valideynlər şurasının sədri Sərhad Məmmədov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi, universitetin ilk məzunlarından olan Asif İmanlı, valideyn Rafiq Hüseynov son illər təhsil ocağının yeni uğurlara imza atmasından, burada nümunəvi təhsil mühitinin yaradılmasından danışmış, məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulamışlar.

Məzunlardan Fatma Abdullayeva, Aysel Rüstəmova, Leyla Nəzərli çıxışlarında doğma ali məktəbi, sevimli müəllimlərini heç vaxt unutmayacaqlarını vurğulamış, gənclərin təhsilinə göstərdiyi yüksək qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirmişlər.

Sonra fakültələr üzrə bədii yaradıcılıq qruplarının müsabiqəsi keçirilmişdir. Müsabiqədə 100-ə yaxın tələbə bilik və bacarıqlarını nümayiş etdirmişdir. Məzunların ifasında müstəqil Azərbaycana, gəncliyə, tələbəlik illərinə həsr olunmuş şeirlər, mahnılar səslənmiş, rəqslər, səhnəciklər nümayiş olunmuşdur.

Təbiyyat elmləri fakültəsinin bədii yaradıcılıq qrupu yüksək nəticə göstərərək müsabiqənin qalibi olmuşdur.

"Məzun Günü"ndə universitetin ictimai və mədəni həyatında fərqlənənlərə, müxtəlif müsabiqələrin, o cümlədən, mini futbol yarışının qaliblərinə fəxri fərman, diplom və hədiyyələr təqdim olunmuşdur.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**